# HƏYAT SINAQDIR...

## *"İşıq adamlar"a bir nəzər*






Bildiyimiz kimi, publisistika cəmiyyəti əhatə edən (mövcud) aktual problemlər və hadisələri özündə (geniş) ehtiva edir, əsasən jurnalistika üçün səciyyəvidir. Belə deyək, sosial ədəbiyyat kimi mənalanır. Bu janrın məqsədi həyatı əks etdirmək, tədqiq etmək, onun haqqında kütləni düşündürmək, onu sosial proseslərə inandırmaqdır. Deməli ki, publisistik materialı sadə ehtimallarla ifadə etmək olmaz. Burada müəllifin mövqeyi, şəxsi peşəkarlığı əsas şərt olmalıdır və s. Səmimi deyək ki, xeyli vaxtdır publisistik yazılarını tədqiq etdiyimiz Hüseyn İsaoğlunun da bu janrda özünəməxsus yanaşma tərzi, şəxsi mövqeyi var və bu, bizi qane edir.

Dedik ki, (əsasən) mətbuatda formalaşan publisistika Hüseyn İsaoğlu dərkində müxtəlif mövqe və maraqları həm əks etdirir, həm də onun öz şəxsi mövqeyində bu, emosiya şəklində qabarıq diqqət çəkir. Yaxşı haldır ki, Hüseyn müəllimin publisistikası aydın və anlaşılandır, xalq yazı dilindədir. Dediklərimizi Hüseyn İsaoğlunun 2025-ci ildə "İmza" nəşrlər evində işıq üzü görmüş "İşıq adamlar" kitabı da sübut edir. Kitabı oxunaqlı edən (daha çox) müəllifin müxtəlif illərdə qələmə aldığı publisistik yazılarıdır. Müəllif bu yazılarda içində qıvrılan çırpıntıların təsirindən mümkün qədər sərtləşib, həyatın çətin anlarını asanca xarakterizə edib. Bəlkə də belə deyil, hər halda biz onun adıçəkilən kitabında normal zəmin kimi əks tapan, əslində təlatüm yaradan həyat acılarını aydın görür və bu qənaətə gəlirik.

Əlbəttə, yazıçıya Allah da istedad verir, ailə və məktəb də, cəmiyyət də; istedad olmadan (sanballı) nəsə yazmaq mümkün deyil. Belə olan tərzdə heç kim öz həyat, tale yanğılarına su səpə bilməz. Üstəlik, qələm sahibi oxucunu da doğru yola yönəltməli, onda həyata bir sevgi aşılamalıdır. Deməli, yalnız Allahın istedad verdiyi şəxs yaxşı yazıçı və ya publisist ola bilir... "İşıq adamlar" kitabını dost payı kimi qəbul edib düşmən kimi oxuduğumuz Hüseyn İsaoğlu da bu mənada, yaxşı qələm sahibidir.

"İşıq adamlar" kitabında müəllifin sözə ehtiyatla yanaşması diqqətimizdən yayınmır. Bu, o anlama gəlir ki, Hüseyn müəllim Sözü İlahi Eşq sanır, bu səbəbdən onun səltənət qapısını çox ehtiyatla tıqqıldadır... Üstəlik, Hüseyn müəllimin daxilində - iç dünyasında çırpınan həya onun publisistikasında da özünü aydın göstərir.

Kitabdakı yazıların əksərində oxucu olaraq həm duyğulandıq, həm də həyat acılarından diksindik: belə bir qərar verdik ki, əcəba, insan bütün həyatını ağrı-acı içində necə keçirə bilir? Yaxud, insan daim hansı şövqlə eyni surətdə qalır? "İşıq adamlar" kitabı bizi bu suallar qarşısında tərpənməz hala salıb...

Bəlli ki, Hüseyn İsaoğlu daxili iztirablara çox mübtəla olub; bu hissi adıçəkilən kitabın publisistik səmtində demək olar hər yazıda sezirik. Hətta onun ən nikbin yazısının ovqatında bu çırpıntı özünü qabardır...

Nəticə etibarilə, kitabdakı kəskin publisistik təsir (bəllidir ki,) oxucuya çox şey təqdim edir. Bu, onu məyus və ya ümidsiz etmir, əksinə həyatın çətinliklərini dəf etmək yönündə mübarizə yollarını (ona) aşkar göstərir.

Kitabda maraqlı, xoşagələn nümunələr çoxdur, orada həyat insan fəhminə, fəhm də insan düşüncəsinə sirayət edir və bu yazılarda həyat, tale, insan obrazları çox düşündürücüdür.

Bizdə bir şey də xüsusi maraq doğurur ki, Hüseyn müəllim ömrün əksər cizgilərini publisistik yazılarda ədəbi nüanslar kimi verib. Oxucu (da) bu yanaşmada özünə sarı yönəlməyin tərzini tapır, daim həyatla üz-üzə çəkçevirdə olur. Bax, Hüseyn müəllimin publisistik yazıları bu anlamda oxucuda geniş təfsir yaradır.

Bu da yaxşı haldır ki, Hüseyn müəllim qələmə aldığı yazılarda eyni nüanslara səmt açmır, müxtəlif proseslər və zəminlər qurur. Həm də bu yazılarda məna məzmunu, fikir ovqatı qarşılıqlı şəkildə izləyir və təmin edir.

Nəhayət, "İşıq adamlar" kitabı oxucuya əsasən çox mühüm bir komponenti açır: Həyat (əvvəlindən sonuna qədər) sınaqdır...

Biz bunu - bu ümumi səciyyəni "İşıq adamlar"da aydın müşahidə edə bildik.

Hüseyn İsaoğlunu təbrik edir, yeni yaradıcılıq uğurları arzulayırıq.



**_Hikmət MƏLİKZADƏ_**